• 22-25 DEKABR 2009-cu il / PARİTET / №139 (1440)



# Regionlarda turizmin inkişafı müzakirə olunub

## *Cənub bölgəsi turizmin inkişafı üçün yaxşı perspektivlər vəd edir*

*● "Paritet" qəzetinin təşkilatçılığı ilə noyabrın 27-də Lənkəran şəhərində "Regionlarda turizmin inkişaf etdirilməsi" mövzusunda dəyirmi masa təşkil olunub. Prezident Yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə yardımı ilə keçirilən tədbirdə Lənkəran rayonunda fəaliyyət göstərən QHT rəhbərləri, KİV nümayəndələri və tələbələr iştirak ediblər.*

"Paritet" qəzetinin əməkdaşı Babək Cahandarov bildirib ki, dəyirmi masanı təşkil etməkdə məqsəd regionlarda turizmin hazırkı vəziyyəti, bu sahədə mövcud olan problemlər, eləcə də inkişaf perspektivləri ətrafında müzakirələr aparmaqdır. Dəyirmi masanın Lənkəranda təşkil olunmasının heç də təsadüfi olmadığını deyən B.Cahandarov, cənub bölgəsinin böyük turizm potensialına malik olduğunu xüsusi vurğulayıb.

Lənkəranda fəaliyyət göstərən "Cəmiyyət-Məktəb Əməkdaşlığına Dəstək" İctimai Birliyinin sədri Rəsul Abdulov bildirib ki, Azərbaycanın təbii şəraiti, olduqca zəngin və rəngarəng rekreasiya ehtiyatları, xarici və daxili turizmin və əhalinin istirahətinin təşkili üçün hər cür şəraitə malikdir. Respublikamızın əlverişli iqlim şəraiti, ilboyu zirvələri qar və buzlaqlarla örtülü olan ecazkar quruluşu, cəlbedici landşaftı, nanın qumlu dəniz çimərlikləri, palçıq vulkanları, tarixi-mədəni və dini abidələr və s. ölkədə daxili və xarici turizmin inkişaf etdirilməsi üçün geniş imkanlar yaradır.

R.Abdulov Cənub regionunun turizm imkanları barədə tədbir iştirakçılarına ətraflı məlumat verib: "Azərbaycanın səfalı guşələrindən olan cənub bölgəsi turizmin inkişafı üçün yaxşı perspektivlər vəd edir. Bu sırada Lənkəran rayonu turizmin inkişafı ilə fərqlənir. Təmiz iqlim şəraiti, zəngin təbii sərvətlər və nadir tarixi -mədəniyyət abidələrinə malik Lənkəran şimal və şərqdən Xəzər dənizi, qərbdən Talış sıra dağları ilə əhatələnib. Dağ və dənizlə əhatə olunduğu üçün Lənkəranda turizmin bir sıra növlərindən istifadə etmək mümkündür.

Burada turizmlə bağlı kompleks işlər görülür. Bir neçə il ərzində şəhərdə bir sıra bağlar və parklar salınıb, yeni istirahət mərkəzləri açılıb.

Talış dağları həm də qış turizmi üçün cəlbedici sayılır. Bu məqsədlə qış turizminin təşkili üçün artıq layihə sənədləri hazırlanıb. Layihəyə əsasən, dağ yerlərində estakadalar qurulacaq. Bundan başqa, xizək turizminin inkişafı ilə bağlı işlər aparılır".

R.Abdulov ölkəmizdə, xüsusən də regionlarda turizmin inkişafına mane olan problemlərin mövcudluğunu da diqqətə çatdırıb. Bildirib ki, regionlarda turizmin inkişafına mane olan amillər sırasına kənd yerlərində infrastruktur sahələrin müasir tələblərə cavab verməməsi, nəqliyyat əlaqələrinin zəifliyi, sosial xidmətlərin zəif təşkili, turistlərin müvəqqəti yaşaması üçün yerlərin seçilməsində mövcud olan çətinliklər, kənd yerlərində kommunal xidmətlərin zəif olması və s. daxildir. Bununla belə birlik sədri dövlət tərəfindən həyata keçirilən iri layihələr nəticəsində adı çəkilən problemlərin tədricən aradan qaldırıldığını, digər sahələrlə yanaşı turizmin inkişafı üçün də əlverişli şəraitin yarandığını vurğulayıb.

"Cənub" telekanalının əməkdaşı Şahin Məmmədov isə regionlarda dağ, idman, xüsusən də ekoturizmin inkişaf etdirilməsi üçün böyük potensialın olduğunu bildirərək, bu potensialdan lazımınca istifadə olunmamasını təəssüf hissi ilə qeyd edib: "Əlverişli iqlimə, füsunkar təbiətə malik olan Azərbaycan ekoloji turizmin inkişafı üçün çox geniş imkanlara malikdir. Ölkəmizdə mövcud olan qoruqlar, yaşıllıqlar, milli parklar yaxın gələcəkdə bu növ turizmi respublikamızda kütləvi inkişafı üçün geniş zəmin yaradır". Respublikamızda ekoturizmi inkişaf etdirmək üçün xüsusi bir proqrama ehtiyac olduğunu deyən Ş.Məmmədov bildirib ki, ekoturizmin bir bir neçə perspektivli növü üzrə yaxın illərdə Azərbaycanda müəyyən uğurlar qazanmaq mümkündür".

"Paritet" qəzetinin əməkdaşı Səbuhi Şəldiyev isə ekoturizmlə yanaşı həm də regionlara elmi ekoturların təşkilini məqsədəuyğun sayır: "Respublikamızın müxtəlif bölgələrində həm də elmi ekoturlar təşkil etmək mümkündür. Elmi ekoturlarda turistlər əsasən müxtəlif təbiət tətqiqatlarında iştirak edir və maraqlı təbiət hadisələrini müşahidə edirlər. Misal üçün, bu cür ekoturları Xəzər dənizi sahili və Abşeron yarmadasında yerləşən palçıq vulkanlarının müşahidəsi ilə bağlı təşkil etmək olar. Həmçinin Qızılağac dövlət qoruğunda qışlamaq üçün hər il dünyanın müxtəlif yerlərindən gələn minlərlə növ quşların müşahidəsi ilə də bağlı elmi ekoturların təşkili böyük effekt verərdi".

B.ŞIXLI